**UOT:** 1 (091).
**KBT:** 60.03
**MJ №** 128

# Qədim yunan fəlsəfəsinin deterministik istiqaməti

**Adil Əsədov***

**Abstrakt.** Qədim yunan fəlsəfəsi dünyanın başqa regionlarında qədim Hindistan və qədim Çində yaranan fəlsəfə ilə eyni zamanda meydana gəlsə də, onların hər ikisinin doğuluşundan fərqli olaraq dünyaya göz açmışdır. Əgər qədim Hindistanda fəlsəfə cəngavər- zadəgan dünyaduyumunun məntiqi mənalandırma üslubu kimi doğulmuşdusa, qədim Çində fəlsəfə öz həyatını kəndli dünyagörüşünün rasionallaşdırılmasından başlamış, qədim Yunanıstanda isə şəhərli dünyagörüşünün ifadə forması kimi meydana gəlmişdi.

Əgər qədim Hindistanda fəlsəfə mifoloji kosmosentrizmin dini transsendentizm üzərində qələbə simvolu kimi formalaşmışdısa, əgər qədim Çində əksinə olaraq, fəlsəfə məhz transsendentizmin ifadəçisi kimi meydana gəlmişdisə və özünü mifik kosmosentrizmə qarşı qoymuşdusa, əkinçi dünyagörüşünün döyüşçü dünyagörüşünə, icma mədəniyyətinin cəngavər mədəniyyətinə qarşı müxalifət forması kimi yaranmışdısa, qədim Yunanıstanda bu elm şəhərli materializminin cəngavər volyuntarizminə qarşı, deterministik elmin fatalist mifologiyaya qarşı, praqmatik həyat tərzinin qəhrəman həyat tərzinə qarşı, determinizm prinsipinin hilozoizm prinsipinə qarşı müxalifət forması kimi təzahür etmişdi.

**Açar sözlər:** qədim yunan fəlsəfəsi, determinizm, praqmatizm, həyati materializm, hilozoizm

## 1.Giriş

Qədim yunan fəlsəfəsi başlıca olaraq üç istiqamətdə inkişaf etmişdir: deterministik, transsendent və kosmosentrik.

Deterministik istiqamət hər şeydən öncə özünün praqmatizmi ilə səciyyəvi olmuşdur. Praqmatik determinizmin yaradılması isə yunan tarixinin postmif mərhələsinə aiddir. Qəhrəmani mifologiyanın yaradıcılarından fərqli

* Fəlsəfə üzrə elmlər doktoru, professor;
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutunun "Estetika" şöbəsinin müdiri; Bakı, Azərbaycan
E-mail: adil_asadov@mail.ru
https://orcid.org/0000-0002-3581-0148

**Məqaləyə istinad:** Əsədov, A. [2022] Qədim Yunan fəlsəfəsinin deterministik istiqaməti. *"Metafizika" jurnalı, 5*(3), səh.10-21.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.11.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 19.01.2022*
*Çapa qəbul edilmişdir: 03.08.2022*

olaraq praqmatik determinizmin yaradıcıları öz protovətənlərindən Baltik yarımadasına köçüb gələn, buranı özününküləşdirən və özlərinə vətən edən qədim yunanlardan deyildilər, əsasən aborigen mənşəli idilər.

Yunanlar öz tarixlərinin ilkin dövründə ümumən məlum olduğu kimi mifik dünyagörüş sahibi idilər və özlərinin mifoloji kosmosentrizmini yaradırdılar. Yunan tarixşünaslığı mif yaradıcılarına etinasızlıqla yanaşmış və görünür elə bu səbəbdən də, onların adlarını əksər hallarda unudulmaya məruz qoymuşdur. Lakin yunan tarixi mifi inkar edən realistik-materiyalist anlama son dərəcə qayğı ilə yanaşmış və bu anlamın ilkin ifadəçilərini yunan fəlsəfəsinin baniləri hesab edərək onları tarixin yaddaşına həkk etmişdir. Bu səbəbdən də, onların adları da ümumən məlumdur və bütün bu adların daşıyıları bir qədər determinizm prinsipi baxımından nəzərdən keçiriləcəkdir.

Öncə isə onların hamısı üçün ümumi olanı və onların yetişməsində zəmin rolunu oynayan tarixi şəraiti nəzərdən keçirək.

**2. Determinizm prinsipi və həyati materializm**

Hər şeydən öncə qeyd edək ki, mifik anlamdan realistik-materialist anlama keçid eyni zamanda hilozoistik izah modelinin deterministik izah modeli ilə əvəzlənməsi ilə müşayiət olundu.

Prosesləri və hadisələri dünyanın canlılıq ideyası əsasında deyil, səbəb-nəticə münasibətləri zəminində izah etməyə cəhd göstərməklə dünyanın deterministik elmi nəzəriyyəsinin əsasını yunanların elə ilk filosofları qoydular. Antik fəlsəfə əslində deterministik elmin təşəkkül prosesi kimi yarandı. Deterministik düşüncə tərzini özündə daşıyan insanlar dünya antikşünaslığı tərəfindən bir fakt olaraq artıq çoxdan qəbul edilən mənada həm antik fəlsəfəyə, həm də antik elmə başlanğıc verdilər. Heç də təsadüfi deyildir ki, ilk yunan filosofları eyni zamanda astronom və riyaziyyatçı idilər.

Deterministik elm utilitarist praktika ilə sıx bağlı idi.

Amerika filosofu Uill Dürant (1885-1981) bununla əlaqədar olaraq belə bir cəhəti özünəməxsus şəkildə sezmişdi ki, riyaziyyat mübadilənin mürəkkəbliyinin artımı ilə, astronomiya isə gəmi səyahətləri məkanının genişlənməsi ilə öz təşəkkülünü keçirib. [1, s.6]

Həmçinin Norveç filosofları Qunnar Skirbekk və Nils Gilye də antik fəlsəfənin doğuluşunu şəhərlərin, daha doğrusu, şəhər-dövlətlərin, polislərin doğuluşu ilə bağlayır. [2, s.12-14]

Qədim yunan şəhərlərinin formalaşması və çiçəklənməsi şəraitində meydana çıxan dünyəvi elm şəhərli üçün səciyyəvi olan *deterministik instinktin, «hər kəs xidmətlərinin müqabilində və xidmətlərinin ölçüsündə mükafatlandırılmalı, qəbahətlərinin müqabilində və qəbahətlərini ölçüsündə isə cəzalandırılmalıdır»* instinktinin rasionallaşdırılmasından doğan nəticədir.

Bu instinkt *həyati materializm prinsipi ilə, yəni maddi sərvətlərin mənəvi sərvətlər üzərində üstünlüyü* inamı ilə sıx bağlıdır. Belə ki, şəhərli tərəfindən həyata keçirilən əməl bir qayda olaraq faydalanma, mükafatlanma xatirinə edilir və nəticə etibarı ilə varlanmaya xidmət edir. Görünür, elə buna görə də, determinist şəhərli instinkti özünün nəzəri ifadəsini təkcə antik elmdə deyil, həm də deterministik fəlsəfənin materialist xarakterində də tapırdı.

**3. İlk yunan filosoflarında natamam determinizm və materializm**

Qədim yunan fəlsəfəsinin ilk nümayəndəsi hesab edilən *Fales* mifik təfəkkürün inkarı, deterministik təfəkkürün təsdiqi və materialist dünyagörüşün rasionallaşdırılması sahəsində Yunanıstanda ilk addımı atdı. Lakin onun konsepsiyası mifik elementləri də özündə saxladığı üçün ziddiyyətlidir. Fales bir tərəfdən təsdiq edir ki, dünyanın mahiyyətində maddi başlanğıc dayanır. O, hətta bu başlanğıcın özünü *su* ilə eyniləşdirərək konkretləşdirir. Digər tərəfdən, o təsdiq edir ki, dünyada hər şey canlıdır və "*Əgər maqnitin ruhu olmasaydı dəmiri özünə çəkərdimi?!*" ritorik sualını verir [3, s.100].

Materialist determinizmlə mifik hilozoizmin elementlərini öz fəlsəfəsində ziddiyyətli bir şəkildə birləşdirən Falesin materializm və mif arasında keçirdiyi tərəddüd onun ardıcılı olan *Anaksimandr*da daha da dərinləşir. Maraqlıdır ki, Anaksimandr determinizmdən daha çox hilozoizmə maraq göstərir və buna görə də Falesdən fərqli olaraq onun fəlsəfi mühakimələrində materializmin əsaslarından daha çox, mifin əsasları rasionallaşdırılır. Bütün mövcudluğun zəminində maddi başlanğıcın durduğuna Falesin inamı güclü idi. Anaksimandr isə fəlsəfi inam sahibi olmaqla dünyanın substansiyasında hansısa başlanğıcın durduğuna inansa da, *arxe* adlandırdığı bu başlanğıcın maddiliyinə bir o qədər də əmin deyildi. Anaksimandr bu başlanğıcın əbədi və qeyri-məhdud olduğunu, hər şeyin bu başlanğıcdan idarə olduğunu güman edir və onu hətta ilahi təbiətli də adlandırır. *Arxe* dünyanın ilkin maddəsidirmi, yoxsa dünya ruhdurmu? Anaksimandr bu suala birdəfəlik və birmənalı cavab verməyə çətinlik çəkir. Lakin Anaksimandrın bütün intellektual axtarışlarının əsasını təşkil edən bu sual onun *arxe* ilə bağlı təsəvvür və mühakimələrini daha da dərinləşdirsə də, onu dönə-dönə həlledilməz ziddiyyətlər burulğanına atır. Anaksimandr bir tərəfdən güman edir ki, *arxe* passiv, amorf, qeyri-müəyyən, dünyanın bütün forma və imkanlarını öz içərisində qoruyub saxlayan olmaqla maddidir. Lakin Anaksimandr, digər tərəfdən, dünyanın dövrü olaraq xaos halından kosmos halına, kosmos halından isə xaos halına qayıtması haqqında kosmosentrik ideyanı da qəbul edir. Mifik kosmosentrizmin xaosa aid etdiyi demək olar ki bütün cəhətlər Anaksimandrın mütləqlik statusu verdiyi *arxe*də

də vardır. Mifologiyanın bizə təqdim etdiyi xaos əslində maddiliyin daşıyıcısıdır. Əgər Anaksimandr tərəfindən arxeyə verilmiş xarakteristika yuxarıda sadalanan passivlik, amorfluq, qeyri-müəyyənlik, dünyanın bütün forma və imkanlarını öz içərisində saxlama əlamətləri ilə məhdudlaşsaydı, onda Anaksimandrın özü, sözün tam mənasında, materialist olmuş olardı. Lakin Anaksimandr öz xarakteristikasını daha bir əlamətlə tamamlayır və bu əlamətin ən mühüm və ən aparıcı olduğunu qeyd edir. Bu ***hüdudsuzluq*** əlamətidir. ***Hüdudsuzluq*** anlayışını qədim yunan dilində ***apeyron*** termini ifadə edir. Anaksimandr ***hüdudsuzluq*** əlamətinə o qədər mühüm əhəmiyyət verir ki, onu bəzən hətta arxenin özü ilə də eyniləşdirir. Beləliklə, Anaksimandrda substansiya *apeyron* şəklini almış olur.

***Hüdudsuzluq*** öz-özlüyündə *xaos*un və ya maddiliyin əlaməti deyildir. Bu bir. İkincisi, *apeyronu* aktiv başlanğıc kimi təsvir etməklə, Anaksimandr ona *canlı kosmos* ideyasının əlamətini şamil etmiş olur. Anaksimandrın apeyronunda mifologiyanın aktiv kosmosu ilə passiv xaosu bir-birinə çuğlaşır.

Anaksimandrın ziddiyyətli doktrinası *Anaksimen*də materialistləşdirilir. Anaksimen Anaksimandrın ilahi təbiətli adlandırdığı substansiyanı hava ilə eyniləşdirərək maddiləşdirir.

Anaksimen dünyanın ilkin başlanğıcı kimi havanı qəbul etməklə belə hesab edir ki, havanın başqa varlıqlara çevrilməsi onun seyrəlməsi və ya qatılaşması nəticəsində baş verir. Qatılaşdıqca o, əvvəlcə buludları, sonra suyu, nəhayət torpağı və daşları əmələ gətirir, seyrələrək isə oda çevrilir. Oxşar fikirlərlə biz həmçinin qədim Çin təfəkküründə də rastlaşırıq. “Hava” (“si”) həmçinin burada da bəzən dünyanın ilkin maddəsi kimi təqdim olunur, Kainatın müxtəlifliyi isə eyni qaydada- havanın seyrəlməsinin və qatılaşmasının nəticəsi kimi qəbul olunur.

Qədim yunanların mifik kosmosentrizmi səmanı canlı kainatın atası, Yeri isə anası hesab edirdi. Anaksimen isə materialist yönümlü bəzi qədim çinlilərə oxşar olaraq səmanı hava ilə eyniləşdirərək maddiləşdirdi və yerə endirdi.

Mifik romantizm öz yerini materialist realizmə verdikcə, səmavi substansiya da öz yerini dünyəvi substansiyaya verir.

İnsanları əhatə edən hər şey, o cümlədən onların özləri də əslində Anaksimendə havanın yalnız şəkildəyişməsi kimi başa düşülür, hava heç də çoxsaylı elementlərdən biri kimi deyil, onların ən ümumi substratı kimi təqdim edilir. Havanı hisslərlə qavranılan dünyanın təkcə substratı kimi deyil, həm də substansiyası kimi qəbul edən Anaksimen iddia edir ki, hiss olunan hər bir şey havanın bu və ya digər dəyişikliklərə məruz qalmasından başqa

bir şey deyildir, hava yalnız hərəkətsiz qaldıqda hiss olunmur, əgər biz nəyisə hiss ediriksə, onda havanın hərəkətindən xəbər tutmuş oluruq.

Bəs, havanı hərəkətə gətirən nədir? Anaksimen bu sualı öz qarşısına qoymadığından həll də etmir. Əgər o, bu sualı öz qarşısına qoymuş olsaydı və onu həll etməyə çalışsaydı, bəlkə də Anaksimandr kimi mifologiyaya müraciət etməli olacaq və öz materializmini yarımçıqlaşdıracaqdı. Lakin o, bunu etmədi. Buna görə də, onun materializmi tam olsa da, fəlsəfəsi yarımçıq oldu.

Anaksimen materializmi özünəməxsus şəkildə olsa da rasionallaşdırdı, amma, materializmlə qoşa doğulan determinizmi rasionallaşdıra bilmədi.

*Pifaqorda* bunun əksi baş verir.

Pifaqor determinizmi rasionallaşdırır, lakin, determinizmin materialist fəlsəfi əsaslarını diqqət mərkəzindən kənarda saxlayır, necə deyərlər, kölgədə qoyur.

Həyati materializm həyati determinizmlə tamamlandığı kimi fəlsəfi materializm də fəlsəfi determinizm ilə tamamlanmalı idi. Lakin bu zərurət Pifaqorda gerçəkləşdirilmədi. Pifaqor determinizmi materializmdən qopardı və sərbəstləşdirdi.

Pifaqor məktəbində materialist fəlsəfənin deterministik elm və determinist praktika ilə əvəzlənməsi müşahidə olunur. Əgər antik elmin bir təfəkkür tipi kimi formalaşması və təkamülü pifaqoraqədərki yunan fəlsəfəsində materialist təmayülün meydana gəlməsi və inkişafı zəminində, bu inkişafla və gerçək praktika ilə çuğlaşmış şəkildə baş verirdisə, Pifaqorda artıq deterministik elm materialist fəlsəfədən və utilitarist həyat praktikasından ayrı, lakin onlara paralel olaraq addımlayır.

Pifaqor determinizmin təkcə kortəbii ifadəçisi deyildi, həm də şüurlu nəzəriyyəçisi idi. Pifaqor və pifaqorçuların əbədi təkrar ideyası əslində səbəb və nəticə arasındakı münasibətlərin birmənalılaşdırılması və mütləqləşdirilməsi idi.

Amma onu da unutmaq lazım deyildir ki, əbədi təkrar ideyası təkcə determinizm üçün deyil, həm də kosmosentrizm üçün də özünü doğruldur, başqa bir kontekstdə olmuş olsa da. Üstəlik, Pifaqorun determinizmi bir çox hallarda materializmdən daha çox kosmosentrizmlə çulğaşır. Bu hal, xüsusən onun estetikasında özünü göstərir:

«*Gözəllik - mənbəyi allahın ixtiyarında olan harmoniyadır*» [4, s.13]. Başqa bir sitat:

> «*Gözəlliyin mütləq nümunəsi, proobrazı və gözəllik hissinin mənbəyi elə kosmosun özüdür.*» [4, s.12].

Daha bir sitat:

*«Hərəkət edən başqa cisimlər kimi göydəki planetlər də səs salır. Hər bir planet özünün ölçüsünə və süratinə müvafiq olaraq səs çıxarır və bütün bunlardan kainat musiqisi yaranır. Bu musiqi isə insan qəlbinə və əxlaqına güclü və müsbət təsir göstərir. Buna görə də, cəmiyyət həyatında musiqidən geniş istifadə olunmalıdır. Musiqi insan ruhunu katarsis edir, onu qəzəb, qorxu, qısqanclıq kimi zərərli ehtiraslardan təmizləyir. Musiqi insan bədənini də azardan, naxoşluqdan təmizləyə bilir»* [4, s.65].

Pifaqorun kosmosentrik meylli determinizmi onun həm də siyasi doktrinasının əsaslandırılmasına yönəlmişdir.

Determinizm prinsipi zahirən bir-birinə az bənzəyən və bəlkə də bir-birinə tamamilə əks olan iki siyasi doktrinanın əsasını təşkil edir. Determinizm prinsipi üzərində köklənən həmin bu siyasi doktrinalardan biri demokratizm, digəri isə despotizmdir. Müasir dünyada görkəmli filosof və görkəmli riyaziyyatçı kimi tanınan Pifaqorun siyasi nəzəriyyəsi, ilk baxışdan nə qədər qəribə səslənsə də, despotik siyasi doktrinanın ifadəçisi idi. Pifaqor "*Hökmdarın verdiyi əmrlər və sərəncamlar mütləq yerinə yetirilməli, təsdiq etdiyi qanunlarına mütləq riayət olunmalıdır*" deyirdi [5, s.37]. Pifaqorun demokratizm əsaslı siyasi determinizm mövqeyində deyil, despotizm əsaslı siyasi determinizm mövqeyində dayanması onunla bağlı idi ki, dövlət başçısının kütlə içərisindən və kütlə tərəfindən seçilməsini o, bir yanlışlıq hesab edirdi. Çünki insanların ən şərəflisinin kütlə tərəfindən müəyyənləşdirilə biləcəyinə inanmırdı. Pifaqor xəbərdar edirdi:

*"Hakimiyyəti şərəfsiz bir insana vermək ağılsızın əlinə qılınc vermək qədər təhlükəlidir"* [5, s.31].

Şərəfli və şərəfsiz insan arasındakı fərq isə təxminən əsl-nəcabətli ilə, əsl-nəcabəti olmayan arasındakı fərqə bərabər idi.

Despotik determinizm şəhər mədəniyyətinin meydana gəldiyi, lakin aparıcı olmadığı, şəhər mədəniyyətinin sona qədər formalaşmadığı dövrlər üçün səciyyəvidir. Pifaqor məhz belə bir dövrün mütəfəkkiri idi. Onun fəlsəfəsi də, siyasi baxışları kimi şəhər mədəniyyətinin inkişaf etmiş dövrünə aid deyil, onun yalnız təşəkkül dövrünə aid idi. Əgər şəhər mədəniyyətinin kifayət qədər inkişaf etdiyi dövrdə dövrün siyasi özünüdərki demokratik determinizm formasını kəsb edirdisə, onun təşəkkülü dövründə belə bir siyasi özünüdərk despotik determinizm idi. Pifaqorun da siyasi baxışları dövrün despotik siyasi praktikası ilə sirli bir şəkildə olmuş olsa da, sıx bağlı idi.

Amma Pifaqor və pifaqorçuluq siyasi tarixin hadisəsi olmaqdan daha çox, elm tarixinin hadisəsi olaraq bəşərin yaddaşına yazıldı.

Pifaqorla və pifaqorçuluqla bağlı fikirlərimizi yekunlaşdıraraq qeyd etmək istərdik ki, Pifaqor məktəbində deterministik elm materialist fəlsəfədən ayrılaraq müstəqilləşdirilsə də, materialist fəlsəfənin özü axıra qədər deterministləşdirilmir.

*Qədim yunan fəlsəfəsinin* birinci, deterministik istiqaməti hələ ki, tamamlanmadığı bir şəraitdə onun *ikinci, transsendent istiqaməti* öz təşəkkülünə başlayır. (Qədim yunan fəlsəfəsinin ikinci, transsendent istiqaməti ilə bağlı müəllif öz konsepsiyasını gələcəkdə təqdim edəcəkdir.)

**4.Deterministik istiqamətin inkişafı və Empedokl**

Empedokl deterministik istiqamətin inkişafını davam etdirdi. Onun yaşadığı dövr- e.ə. V əsr despotizmin demokratizmlə əvəzlənmə dövrü kimi də səciyyələndirilə bilər. Demokratikləşmə isə materializmi və determinizmi daha çox ön plana çıxardı.

Empedoklun fəlsəfi təfəkkür axınına qoşulduğu bu dövr eyni zamanda Anaksimendən gələn yarımçıq materializmin Pifaqordan gələn yarımçıq determinizmlə yanaşı irəlilədiyi bir dövr idi. Materializmi və determinizmi yarımçıqlıqdan xilas etmək üçün növbəti tarixi təşəbbüs də məhz Empedokl tərəfindən göstərildi.

Empedoklu öz sələfləri ilə birləşdirən ümumi cəhət ondan ibarət idi ki, o, "*bütün şeylərin kökündə*" də maddi başlanğıcları, konkret deyilərsə odu, havanı, suyu və torpağı götürmüş, bu maddi başlanğıcların əbədiliyini və dəyişməzliyini, bir-birindən yarana bilməməsini və bir-birinə çevrilə bilməməsini, bütün başqa şeylərin isə bu elementlərin bir-biri ilə birləşməsindən yarandığını qəbul etdi. Bu mənada Empedoklun materializmi təkcə özünün yunan sələflərinin materializmi ilə deyil, həm də hindlilərin *lokayata* və çinliləri *u-sin* təlimləri ilə qovuşur.

*Lokayata* təlimində dünyanın həmin dörd elementdən, *u-sin* təlimində isə beş elementdən - sudan, oddan, metaldan, ağacdan və torpaqdan- təşkil olunması qəbul edilir. Empedoklu onun sələflərindən ayıran cəhət isə maddi başlanğıcları hərəkətə gətirən səbəbi izah etmək cəhdində idi. Lakin Empedoklda bu cəhd determinizm prinsipinin deyil, kosmosentrizm prinsipinin köməyi ilə həyata keçirilir. Empedokl belə güman edir ki, dünyada real olaraq mövcud olan təkcə onun sadaladığı maddi başlanğıclar deyil, həm də bu başlanğıcları bir-birinə birləşdirən və bir-birindən ayıran canlı qüvvələrdir. Empedokl bu qüvvələri "*məhəbbət* və *nifrət*" və ya "*dostluq* və *düşmənçilik*" adlandırır. Bu baxımdan Empedoklla qədim Çin fəlsəfəsi arasında daha bir paralel aparmaq mümkündür. Mo-tszı özünün «ümumi məhəbbət» konsepsiyasında bütün Kainatı saran fövqəlbəşər məhəbbətdən söhbət açır. Həmçinin Empedokl fəlsəfəsində də *məhəbbət* və

*nifrət* və ya *dostluq* və *düşmənçilik* təkcə insanlara xas cəhətlər olmayıb, həm də, bütün kainata aid edilən xüsusiyyətlərdir. Müxtəlif elementlər bu qüvvələrin birincisi ilə birləşdirilir, ikincisi ilə isə ayrılırlar. Bu qüvvələrin hansının üstünlük təşkil etməsi ilə isə dünyəvi prosesin bu və digər mərhələsi müəyyənləşir. Məhəbbətin üstünlük təşkil etdiyi mərhələ Kainatın kamilliyi dövrünə uyğun gəlir. Bu zaman nifrət sıxışdırılıb Kainatdan kənara çıxardılır, dünya *kosmos*a çevrilir, nizamlılığın və gözəlliyin təcəssümü olur. Sonradan nifrət Kainata daxil olur, onun elementlərini bir-birindən ayırır, məhəbbətin özünü isə Kainatın mərkəzinə doğru sıxışdırır, dünya *xaos*a çevrilir, nizamsızlığın və eybəcərliyin mücəssəməsi olur. Nifrətin hakimiyyəti dövründə müxtəlif mühitlərdə suda, efirdə, quruda yaranmış müxtəlif orqanlar məhəbbətin hakimiyyəti dövrünə keçdikcə bütöv bir orqanizm şəklində birləşirlər.

Empedoklda ilkin elementləri bir-birinə birləşdirən və bir-birindən ayıran səbəb bu elementlərin hər birindən kənarda qalan qüvvə olduğundan və qüvvə ilə onun təsirinin nəticəsi arasında birmənalı münasibət olmadığından Empedoklun fəlsəfəsi determinist xarakterli deyildi. Bu fəlsəfə müxtəlif dünyagörüşlərin sintezi hesabına tamamlansa da, materialist başlanğıcla kosmosentrik sonluq arasındakı ziddiyyət ucbatından materializmin fəlsəfi təqdimatı Empedoklda da yarımçıq qalır.

Deməli, həmçinin Empedokl da dövr qarşısında duran başlıca fəlsəfi problemi həll edə bilmədi.

Bu dövrdən etibarən qədim yunan kütləvi şüuru dərin böhran keçirməyə başlayır. Həyatın və dünyanın kosmosentrik-mifoloji zəmində izahı materialist meylli kütləvi şüurun tələblərinə artıq aşkar bir tərzdə cavab vermir. Materialist təfəkkür stereotiplərinin kütləviləşdirilməsinə ehtiyac yaranır. Bu ehtiyac əsasən Empedoklun yarımçıq materializmi zəminində **sofistlər** tərəfindən ödənilir. Sofistlərin ən görkəmlilərindən olan ***Qorgiy*** isə Empedoklun şagirdi idi.

Dünyaya utilitar münasibət sofistikada zəka kultunun formalaşması ilə tamamlandı. Sofistlər dini və siyasi qadağalardan qorxmayaraq hər cür dünyagörüşü, siyasi strukturların hər bir tipini cəsarətlə zəkanın hakimliyi önündə mühakimə etdikləri üçün sofistika ümumiyyətlə Yeni dövrün Maarifçilik hərəkatına çox bənzəyirdi. Yeni dövrün maarifçiləri tərəfindən müzakirə olunan elə bir problem yoxdur ki, həmin problem sofistika daxilində müzakirə edilməmiş olsun.

Amma bu dövrün intellektual özünüdərkində əslində bir dramatizm də yaşanırdı. Həmin dramatizmin mənbəyi kütləvi şüurda hələ də öz mövcudluğunu saxlamaqda olan mifik əsaslı tale kultu ilə zəka kultu

arasındakı ziddiyyət idi. Təfəkkür üslubu əsasən rasionalist xarakterli olan bu dövrdə həmin bu dramatik ziddiyyətə sofistlər bir o qədər də əhəmiyyət vermirdilər, bu, daha çox dramaturgiyanın, daha konkret deyilərsə, dramaturgiyanın o dövrdə ən görkəmli simasının- Sofoklun diqqət mərkəzində idi. (*Sofokl* bir tərəfdən bir rasionalist olaraq etiraf edirdi ki, insan qüdrətinin mənbəyi onun dərrakəsi və zəkasıdır. Dünya qüdrətlilərlə doludur, amma insandan qüdrətli dünyada heç nə yoxdur. Lakin digər tərəfdən, o, dünyanın həm də irrasional başlanğıc tərəfindən də idarə olunduğunu etiraf edirdi. *Edip*in faciəsinin əsası, görünür, rasionalizm və irrasionalizm arasındakı bu ziddiyyətdə idi.)

Sofistlərin diqqət mərkəzində isə qətiyyən talenin hökmü deyildi, zəkanın, biliyin hökmü idi. Onlar cəmiyyətin zəka, bilik zəminində yenidən qurulmasının tərəfdarları idilər. Üstəlik, tacir xislətli olduqlarından biliyi bir əmtəəyə çevirmişdilər, kobud deyilərsə, “bilik satıcıları” idilər.

Cəmiyyətin zəka, bilik zəminində yenidən qurulması tərəfdarları olmaqla, despotizm zamanından qalan qanunların əleyhinə çıxış edirdilər. Qorgiy: «insanlar üçün qanunun özü insan təbiətinə zidd olan bir tirandır», - deyirdi. Onlar müasir demokratik liberalizmdən daha radikal idilər.

Sofistlər, artıq vurğulandığı kimi, əməklərin müqabilində əmək haqqı almaqla intellektual fəaliyyəti muzdlu əməyin bir formasına çevirmişdilər, öz fəaliyyətlərini əslində iqtisadi determinizm prinsipi- «əmək- əmək haqqı» sxemi üzərində qururdular. Özlərinin təhsil verməklə ifadə olunan «zəhmət»lərinin müqabilində «zəhmət haqqı» almaqla onlar demos üçün səciyyəvi olan deterministik iqtisadi fəaliyyət prinsiplərini elmə gətirdilər. Alim sofistləşənə qədər *elmin fanatiki* idi, sofistləşərək isə *zəhmətkeş ziyalı*ya çevrildi. Əməl və əvəz arasında münasibətlərin birmənalılaşdırılmasından çıxış edən sofistlər əslində həyatda da determinist idilər və praktik həyatda determinist olmaqla, həyati materializmə meylli idilər.

Determinizm və materializm şəhərli dünyagörüşünün şübhəsiz ki, mühüm cəhətləridir. Lakin nə determinizm, nə də materializm şəhərli fəaliyyətinin sözün tam mənasında məqsədini deyil, yalnız üsul və vasitələrini ifadə edir. Şəhərli fəaliyyətinin məqsədi öz ifadəsini daha çox hedonizmdə tapır. Şəhər mədəniyyəti ümumiyyətlə hissi həzlərə xüsusən meylli olduğundan ***Aristipp***in və onun tərəfindən əsası qoyulmuş **Kirena məktəbi**nin hedonistik nəzəriyyəsi şəhərli dünyaduyumunun ən səciyyəvi təsvirlərindən biri oldu. Əgər şəhərlinin dünyadan daha çox həzz alma və ağrılardan daha çox uzaq olma istəyi onun fəaliyyətinin məqsədini təşkil edirsə, determinizm bu məqsədin həyata keçməsi üçün ümumi cədvəl verir və

həmin sxemi materiya vasitəsilə gerçəkləşdirir. Hedonizm determinizmi, determinizm isə materializmi doğurur.

Lakin hedonizmin, determinizmin və materializmin ontoloji əsasları və qnoseoloji prinsipləri nə sofistlər, nə də Aristipp tərəfindən deyil, onlardan sonra Demokrit, Aristotel və Epikür tərəfindən müəyyənləşdirildi. Determinizmin və materializmin ontoloji əsaslarını biz Levkipp-Demokrit atomistikasında, qnoseoloji və idraki prinsiplərini isə Aristotel fəlsəfəsində tapırıq.

**5.Nəticə**

İlk yunan filosofları tacir mənşəli olmaqla, təkcə determinist deyildilər, həm də materialist idilər, maddi dünyanın ilkinliyindən çıxış etməklə, şeylərin son və dəyişməz *əşyavi* əsasını axtarırdılar. Bu axtarışın məntiqi başlanğıcı Milet məktəbi, məntiqi sonluğu isə atomizm idi. Levkipp və Demokrit tərəfindən yaradılan, Epikür tərəfindən inkişaf etdirilən və geniş təsvir edilən atomizm təliminin təşəkkül və inkişaf prosesi, bütövlükdə götürüldükdə, *Fales-Anaksimandr-Anaksimen-Pifaqor-Empedokl-sofistlər-Aristipp-Levkipp-Demokrit-Aristotel-Epikür* xətti üzrə baş vermişdir.

## ƏDƏBİYYAT

1. Durant, W. (1933). *The Story of Philosophy. The lives and Opinions of Greater philosophers.* N.Y. p. 6
2. Qunnar, S. & Nils, G.(2008). *Fəlsəfə tarixi.* (Tərcümə edən: Adil Əsədov).
3. *Фрагменты ранних греческих философов*. (1989). (Ч.1). (Подгот. изд. Лебедев А). (В. Отв. ред. И. Д. Рожанский). М.: Наука, 575 с.
4. Əsədov A.İ. (2005). *Gözəlliyin fəlsəfəsi.* Bakı
5. Əsədov A.İ. (2013). *Siyasətin fəlsəfəsi.* Bakı

## Детерминистическое направление древнегреческой философии

**Адиль Асадов***

* Доктор философских наук, профессор,
заведующий кафедрой «Эстетики» Института Философии и Социологии НАНА; Баку, Азербайджан.
E-mail: adil_asadov@mail.ru
https://orcid.org/0000-0002-3581-0148

**Цитировать статью:** Асадов, А. [2022]. Детерминистическое направление древнегреческой философии. *Журнал «Metafizika», 5*(3), c.10-21.

***История статьи:***
*Статья поступила в редакцию: 15.11.2021*
*Отправлена на доработку: 19.01.2022*
*Принята для печати: 03.08.2022*

**Абстракт.** Несмотря на то, что древняя греческая философия возникла наряду с философией древней Индии и древнего Китая, данная наука отличалась своеобразностью. В древней Индии философия состояла из логично-смыслового стиля мироощущения «рыцарь - аристократ», а в древнем Китае ее жизнь начиналась с рационализации мировоззрения сельчанина. В древней Греции данное понятие проявилось в форме мировоззрения горожанина.

В древней Индии философия формировалась на основе символа победы мифического космоцентризма над религиозным трансцендентализмом, но в отличии от таковой, в древнем Китае она выступала в лице представительницы трансцендентализма и была против мифического космоцентризма. Также в данном регионе философия поддерживала мировоззрение пахаря, отталкивая мировоззрение воина, выступала против культуры воина и поддерживала общественную культуру, в итоге проявляя оппоцизионную форму.

В древней Греции философия отражала материализм горожанина, выступая против волюнтаризма воина, отталкивая фаталистическую мифологию она предоставляла детерминистическую науку, а также отражала прагматический, отвергая героический стиль. В результате отрицая принцип гилозоизма данная наука поддерживала принцип детерминизма.

**Ключевые слова**: древняя греческая философия, детерминизм, прагматизм, жизненный материализм, гилозоизм

## The Deterministic direction of ancient Greek Philosophy

**Adil Asadov***

**Abstract.** Despite the fact that ancient Greek philosophy arose along with the philosophy of ancient India and ancient China, this science was distinguished by its originality.If in ancient India, philosophy was originated as a style of logical interpretation of the worldview of a knight-noble, in ancient China, philosophy had its origin from the rationalization of the peasant worldview, and in ancient Greece, it appeared as a form of expression of the urban worldview.

* Doctor of Philosophy, Professor,
Head of the "Aesthetics" department of the Institute of Philosophy and Sociology of ANAS; Baku, Azerbaijan
E-mail: adil_asadov@mail.ru
https://orcid.org/0000-0002-3581-0148
**To cite this article:** Asadov, A. [2022]. The Deterministic direction of ancient Greek Philosophy. *"Metafizika" journal*, *5*(3), pp.10-21.

***Article history:***
*Received: 15.11.2021*
*Accepted: 03.08.2022*

If in ancient India philosophy was formed as a symbol of the victory of mythological cosmocentrism over religious transcendentalism, in ancient China, on the contrary, philosophy arose precisely as an expression of transcendentalism and opposed mythical cosmocentrism,as warrior worldview vs the peasant worldview, the knightly culture of the community culture, but in ancient Greece, this science manifested itself as a form of opposition to the chivalrous voluntarism of urban materialism, deterministic science to fatalistic mythology, pragmatic lifestyle to the heroic lifestyle, determinism to the principle of hylozoism.

**Keywords:** ancient Greek philosophy, determinism, pragmatism, vital materialism, hylozoism

**REFERENCES**

1. Durant W.(1933). *The Story of Philosophy. The lives and Opinions of Greater philosophers.* N. Y., p.6
2. Skirbekk, G. & Gilje, N., (2008). *History of philosophy.* (Trans. Adil Asadov).
3. Lebedev, A.V. (1989). *Fragments of early Greek philosophers.* (Otv. red. I. D. Rozhanskiy). Moscow: Nauka, CH. 1. 575 p. (in russian)
4. Asadov A.I. (2005). *The philosophy of beauty*. Baku (in Azerbaijani)
5. Asadov A.I. (2013). *Philosophy of politics.* Baku (in Azerbaijani)